# Maqsud İbrahimbəyovun alman dilinə tərcümə olunmuş povestlərindən ibarət kitab təqdim edilib




**Vyana Beynəlxalq Kitab Sərgisi ərəfəsində Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycanın Xalq yazıçısı, Dövlət mükafatı laureatı Maqsud İbrahimbəyovun alman dilinə tərcümə olunmuş povestlərindən ibarət kitabın təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova təqdim olunan kitabın Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq yazıçının 90 illik yubileyi ilə bağlı keçirilən silsilə tədbirlərin tərkib hissəsi olduğunu bildirib.

Maqsud İbrahimbəyovun həyat və yaradıcılığına nəzər salan L.Qasımova diqqətə çatdırıb ki, yazıçının əsərləri almandilli oxuculara hələ ötən əsrin 70-ci illərindən yaxşı tanışdır. Bu kitabda görkəmli yazıçının müxtəlif dövrlərdə çap olunmuş povestləri toplanıb və Mədəniyyət Mərkəzi tərəfindən çapa hazırlanıb. Kitabdakı "Ondan yaxşı qardaş yox idi", "Bayquş gəlmişdi", "Truskavetsə kim gedəcək", "Axırı yaxşı qurtaran əhvalat" povestlərinin xüsusiyyətlərindən bəhs edən L.Qasımova bildirib ki, sovet konyunkturasına xitab etməyən bu povestlərdə insan psixologiyası, onun iç dünyası, sevinc və kədəri bütün incəlik və çalarları ilə əks olunur, oxucunu öz cazibəsində saxlayır.

Qeyd edilib ki, nəşrlərində Azərbaycan haqqında kitablara geniş yer verən Hans-Yürqen Maurer nəşriyyatında çap olunan kitabı Amazon platforması vasitəsilə həm kitab şəklində, həm də elektron formatda əldə etmək mümkündür. Bu da kitabın geniş oxucu kütləsi arasında yayılmasına imkan yaradacaqdır.

Azərbaycan Respublikası mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov çıxışında bildirib ki, dramaturq, ssenarist, rejissor kimi fəaliyyət göstərmiş Maqsud İbrahimbəyovun yubileyi dövlət səviyyəsində həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda qeyd edilir. Dövlət başçısının sərəncamına uyğun olaraq, müəllifin əsərləri tamaşaya qoyulur, yeni kitablar nəşr olunur.

Maqsud İbrahimbəyov adına Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova yazıçının həyat və yaradıcılığına nəzər salıb, bu gün onun ədəbi irsinə dövlətimiz tərəfindən verilən yüksək qiyməti təqdir edib və Yaradıcılıq Mərkəzinin yaradıcı insanların bir araya gəldiyi, müxtəlif səpkili tədbirlərin keçirildiyi məkana çevrildiyini bildirib.

Sonra Maqsud İbrahimbəyov adına Yaradıcılıq Mərkəzinin fəaliyyətinə dair videoçarx və M.İbrahimbəyovun həyatının müxtəlif dövrlərini əks etdirən fotoların toplandığı albom nümayiş etdirilib.

Naşir Hans-Yürqen Maurer öz çıxışında Azərbaycanla bağlı mövzuların uzun illərdən bəri onu cəlb etdiyini və buna görə də bu kimi layihələrin reallaşdırılmasında gələcəkdə də maraqlı olduğunu ifadə edib. O, kitabın nəşrinin ona həvalə olunmasından məmnun olduğunu bildirib və göstərilən etimada görə təşəkkür edib.

Çıxışlardan sonra Maqsud İbrahimbəyovun əsərləri əsasında çəkilmiş ekran əsərlərindən parçalar nümayiş etdirilib, həmçinin bədii qiraətçi, aktyor Konstantin Tsander povestlərdən parçalar oxuyub.

Tədbir çərçivəsində Mədəniyyət Mərkəzində Maqsud İbrahimbəyovun əsərlərinin müxtəlif dillərdə nəşrləri nümayiş etdirilib.

Azərbaycan.- 2025.- 13 noyabr (№241).- S. 15.